**A N A R**

# *Elçinə*

*Dərdimi suya dedim*
*Od tutub alışmadı.*
*Ölümümlə barışdım*
*Həyatım barışmadı.*

*Dostumu incitmədim,*
*sözümü daşa dedim.*
*Əks-səda verdimi?*
*Bu dünyadan gedəndə*
*Dönəcəyik birdəmi?*

*Bulud olub torpağa*
*yağacayıq birdəmi?*
*Ağac olub, ot olub*
*bitəcəyik birdəmi?*
*Kölgələrə qarışıb*
*itəcəyik birdəmi?*

*Bir gün mənsiz qalanda,*
*Telefon zəng çalanda*
*ani bir aldanışla*
*ürəyin diksinəcək:*

*- Görəsən, Anardımı?*
*Yox, yadına düşməsəm*
*Bunun suçu kimdədir -*
*Elçində, Anardamı?*

*Nədir ömrün mənası?*
*Belə qısadır neçin?*
*Mən ki bunu bilmirəm,*
*Sən bilirsənmi, Elçin?*

*1999, noyabr*

**Ədəbiyyat qəzeti.- 2023- cü il.- 20 may.- S. 3.**